2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 50 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 5 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 78 saylı Lənkəran kənd seçki dairəsi üzrə öz təşəbbüsləri ilə qeydə alınmış namizədlər Əzizov Əzizxan İman oğlu və Quluzadə Tural Səxavət oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 4 sentyabr 2024-cü il tarixli 50 saylı müracətini nəzərdən keçirərək **m ü ə y y ə n e t d i m**:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq nəzərdən keçirilərkən müraciətin aidiyyət qaydalarının pozulması ilə daxil olduğu müəyyən etdim.

Seçki Məcəlləsinin tələbinə görə, iddia olunan qanun pozuntuları ilə bağlı müraciətlər ilkin olaraq dairə seçki komissiyasına verilməli, həmin müraciət üzrə dairə seçki komissiyasının qəbul etdiyi qərardan, hərəkətdən (hərəkətsizlikdən) Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən, şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin şikayətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 78 saylı Lənkəran kənd seçki dairəsi üzrə öz təşəbbüsləri ilə qeydə alınmış namizədlər Əzizov Əzizxan İman oğlu və Quluzadə Tural Səxavət oğlunun 4 sentyabr 2024-cü il tarixli 50 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov